Respublika.- 2025.- 28 fevral (№ 45).- S.12.

# Qan yaddaşımıza yazılan dəhşətli facia

*Füsunkar təbiəti, yeraltı və yerüstü sərvətləri ilə zəngin olan Azərbaycan zaman-zaman yadellilərin diqqət mərkəzində olub. İşğalçılar bu sərvətləri ələ keçirmək üçün nə qədər qan töküblər, xalqın mal-dövlətini talan ediblər.*

Azərbaycanın tarixi keçmişinə nəzər saldıqda bu torpaqda biri digərini əvəz edən acı səhifələrə rast gəlirik. Bu səhifələrdən ən dəhşətlisi XIX əsrin əvvəllərindən başlamışdır. Erməni millətçiləri son iki əsrdə azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı törətmiş, xalqımızı ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə düçar etmişlər. Yüz minlərlə dinc azərbaycanlı milli mənsubiyyətinə görə məhv edilmiş, öz ata-baba yurdlarından didərgin salınmış, xalqımızın qədim torpaqları, yaşayış məskənləri xarabalığa çevrilmişdir.

Dünyanın hər yerinə səpələnən, yalnız bəd əməlləri hesabına bir yerə cəmləşən ermənilərin bir məqsədi olmuşdur: başqa xalqların əraziləri hesabına "böyük Ermənistan" xülyasını gerçəkləşdirmək. Bu məqsədlə nəhəng dövlətlərin himayəsinə sığınaraq qonşu dövlətlərə qarşı işğalçılıq siyasəti və bu yolla tarixi Azərbaycan torpaqları hesabına Ermənistan dövləti yaratmışlar. Sərsəm "böyük Ermənistan" ideyasını həyata keçirmək üçün saxta ideoloji tezislər formalaşdırmış, terrorçu təşkilatlar yaratmışlar.

Tarixi faktlara baxsaq, görərik ki, XIX əsrin əvvəllərindən başlayaraq mənfur ermənilər kütləvi şəkildə əzəli Azərbaycan ərazilərində yerləşmişlər. Bugünkü Ermənistan ərazisinin 82 faizdən çoxu qədim Azərbaycan torpaqlarıdır. Bu torpaqlar 1828-ci il Türkmənçay müqaviləsindən sonra müxtəlif yollarla Azərbaycandan alınıb ermənilərə verilmişdir. Zəngəzur, Dərələyəz, İrəvan xanlığı, Şəmşəddin, Göyçə mahalları dədə-baba yurdlarımızdır. Bu ərazilərdə 15-dən çox inzibati rayon, 10 böyük şəhər, 11 qəsəbə və yüzlərlə kəndin adını ermənilər




dəyişdiriblər. Erməni tarixçilərin sübut etməyə çalışdıqları konsepsiyaya görə, guya ermənilər indiki Ermənistan ərazisində köklü əhalidir, azərbaycanlılar isə buraya XII-XIII əsrdə gəliblər. Onlar tarixi faktlara məhəl qoymadan bütövlükdə Kür-Araz ovalığının, hətta Naxçıvanın da erməni torpaqları olduğunu iddia edirlər, buranı "Şərqi Ermənistan" adlandırırlar. Lakin bütün tarixi mənbələrdə faktlar sübut edir ki, ermənilər burada yerli, aborigen əhali deyil. Məlumdur ki, bu millət özünü erməni adlandırmır, erməni sözü bu millətin adı deyil. Onlar özlərini hayk adlandırırlar. Erməni sözü başqa xalqlar tərəfindən hayklara verilmiş şərti addır. Tarixçilər sübut edirlər ki, erməni tayfaları friqlər və hayklar Kiçik Asiyaya gəlmiş, Fərat çayının yuxarı hissələrində və indiki Ermənistan yaylası adlanan yerdə yerləşmişlər. Əslində heç "böyük Ermənistan" adlandırdıqları ərazilər də ermənilərin doğma torpağı deyil. Min illər boyu erməninin nə dövləti, nə də dövlətçiliyi olub. Ermənilər 1918-ci ildə rusların köməyi ilə Azərbaycan torpaqlarını ələ keçirib dövlət qurdular. 1804-1813-cü illəri əhatə edən I Rus-İran, 1826-1828-ci illər II Rus-İran müharibəsindən sonra ermənilərin torpaqlarımızda sayı daha da artdı. Xüsusən də 1828-ci ildə bağlanmış Türkmənçay sülh müqaviləsindən sonra İrandan Azərbaycana 50 minə qədər, 1829-cu ildən sonra isə Türkiyə ərazisindən 90 min erməni köçürülmüşdü. Köçürülən ermənilər əsasən Naxçıvan, İrəvan, Qarabağda yerləşdirilmişlər.

Rus tədqiqatçısı Şavrov bildirib ki, 1911-ci ildə 1 milyon 300 min erməninin 1 milyondan çoxu çar Rusiyası tərəfindən buraya köçürülmüşdür.

Erməni millətçilərinin azərbaycanlılara qarşı soyqırımı cinayətlərinin miqyasını və bu cinayətləri necə vəhşiliklə həyata keçirdiyini təsəvvür etmək üçün Xocalı şəhərində baş vermiş qanlı faciəni yada salmaq yetərlidir. Bəşəriyyət tarixinə ən qanlı faciələrdən biri kimi həkk olunmuş bu dəhşətli gecədə Xocalı şəhəri yerlə-yeksan edilmişdir. Xocalı sakinləri - uşaqlar, qadınlar, qocalar vəhşicəsinə öldürülmüş, şikəst edilmiş, dəhşətli təhqirlərə, zülmə və həqarətə məruz qalmışlar. Ən dəhşətlisi də budur ki, dünya dövlətlərinin əksəriyyəti buna göz yumdu.

Lakin ümummilli lider Heydər Əliyevin qətiyyətli, məqsədyönlü siyasətini prinsipiallıqla davam etdirən cənab İlham Əliyev Avropa Şurasında böyük cəsarətlə Avropa ölkələrinə və bütün dünyaya erməni məkrinin mahiyyətini açdı və xəbərdar etdi ki, ermənilər Yer üzünün müxtəlif guşələrində yığcam yaşadıqları bir çox dövlətlər üçün də oxşar problemlər yarada bilərlər və buna hər an, hər yerdə fürsət gözləyirlər. Ona görə də beynəlxalq ictimaiyyət ikili standartlardan əl çəkməlidir. İşğalçının mövqeyini dəstəkləməməli, ona biganəlik nümayiş etdirməməlidir.

Bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuzun qəhrəmanlığı nəticəsində Qarabağ azaddır. Yerlə-yeksan olunmuş ərazilər yenidən qurulur, çiçəklənir. Öz doğma vətənində torpağına həsrət qalmış insanlar yurdlarına qayıdırlar.

Hər bir Azərbaycan vətəndaşının borcudur ki, Xocalı soyqırımını yalnız ildönümündə deyil, hər gün, hər saat xatırlasın, başımıza gətirilən bu faciələri unutmasın, qan yaddaşına həkk etsin, gələcək nəsillərə ötürsün.

**Elmira HACIYEVA,**
**"Respublika".**